# 19 yaşlı snayper

## Arzu yükü



Şəkillərlə tanış oluram, o qədər gəncdir ki... Qəlbindəki yığın-yığın arzuları mələk üzlü simasından oxunur. Baxışlarından düşüncələrini duymaq olur. Ancaq gözlərinin dərinliyində "xal" düşmüş arzular boylanır. O arzular ki... Hələ fidan idi, hələ ayın doğuşunu, günəşin batışını, üfüqün parıltısını seyr etməmişdi... Sevgi gözəlliyini yaşamamışdı. O körpə qəlbində tufanlar hayqırsa da, alov da, gurşad da ürəyində yanır, ürəyinə yağırdı - sükutla yatırdı gələcək arzuları ürəyində. İlk baxışdan sakit görünsə də, köksündə yolları silkələyəcək, relsləri qıracaq qədər arzu yükü var idi.

Döyüşlərdə iştirak edə-edə düşmənə qan udduraraq özü də böyüyürdü. Döyüş yoldaşları onun mətinliyini, qorxmazlığını, silahdaşlarına hörmət və məhəbbətini, sədaqətini onun hər bir hərəkətində hiss edirdilər. Arzulardan arzular doğar; müharibə onun da düşüncələrində öz izini buraxmışdı: "Bu mübarizədə ya general olacam, ya şəhid". Fariz həqiqətən də general olacaqdı, əgər yaşasaydı. Bu, onun döyüş əzmkarlığından, qətiyyətindən hiss olunurdu. Ancaq silahdaşlarının qəlbində həqiqətən də özünəməxsus bir "general" idi... Bunu Vətənə sipər etdiyi canıyla, qanıyla sübut etdi.

Rəhimov Fariz Zahir oğlu 2001-ci il sentyabr ayının 20-də Əmirvan kəndində dünyaya gəlib, sadə, zəhmətkeş bir ailədə böyüyüb. 2007-2016-cı ildə 9-cu sinfi başa vurduqdan sonra 12 saylı Bakı Peşə litseyində təhsilini davam etdirib. Fariz oxuduğu müddətdə həm də peşəsinə uyğun işləyirdi. Körpə-körpə ayaqda durmağı öyrənirdi. Bu, zəhmətkeş, halal çörək qazanan atasından örnək idi ona. Axı uşaqlıqdan atasına ailənin hər bir işində yardımçı, işgüzarlığa aludə olardı. 2017-ci ildə oxuduğu məktəbi başa vurduqdan sonra kəndə qayıdır və Qəbələdə özəl müəssisələrdən birində operator kimi işə başlayır.

### Əsgər

2019-cu ilin payızında hərbi xidmətə yollanır. Qusar rayonunda təlim və imtahanlarda I yer tutduğuna görə kəşfiyyatçı bölümünə alınır, snayper kimi xidmətini davam etdirir. 2020-ci ilin sentyabrında başlanan II Vətən Müharibəsində elə ilk günlərdə döyüşlərdə iştirak edir. Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Laçın dəhlizinin alınmasında, Şuşada snayper kimi döyüşür. Fariz zabitlər arasında döyüşən tək əsgər idi. Şuşa döyüşlərinə gedəndə ailəsi ilə danışaraq demişdi ki, mənə zəng vurmayın. Xüsusilə, atasına: "Ata, özün müharibədə iştirak etmisən, qızğın döyüşlər zamanı biz yalnız döyüşürük..." Farizin atası Zahir Rəhimov da 1992-94-cü illərdə I Qarabağ Müharibəsinin iştirakçısı olmuşdur. Atasının vətənpərvərlik hissi ilə böyüyən Fariz Şuşanın girəcəyində yaralanır, lakin "daha ağır yaralılar var" - deyərək, döyüşə davam edir. Döyüş yoldaşlarının dediyinə görə, Şuşa kəşfiyyat cığırını ayaqyalın keçən ilk əsgər olmuşdur. Qisas hissi, vətən məhəbbəti güclü olan Fariz ailəsi ilə danışan zaman: "Sona qədər döyüşəcəm, ya general, ya şəhid kimi qayıdacam, hazır olun!" - demişdi.

Oktyabr ayında əsgəri xidmətinin bir ili tamam olurdu. Ancaq noyabrın 11-də onun şəhid xəbəri kənddə eşidiləndə Əmirvan kəndi yenidən çalxalandı. Axı Fariz bu müharibədə kəndin ən gənc şəhidi idi. O, Əmirvan kəndində dəfn olunmuşdur.

### Ömrü "dastan"a döndü

Atası və anasının,əmisi Hafizin, özündən balaca bacıları Aidə və Pərişanın o qədər ürək sözləri var idi ki... Fariz haqqında yazdıqları şeirlər, o körpə yaşı ilə qazandığı hörmət, etdiyi qəhrəmanlıq bir dastan idi. Hələ həqiqi xidmətinin ilk aylarından müharibədən əvvəl təşəkkürnamələr alan gənc ölümündən sonra da bir neçə orlen və medalla təltif olunmuşdur.

İnsan var ki, əsrə bərabər ömür yaşar, ancaq adı da özü ilə bərabər dəfn olunar, ancaq insan da var ki, ömür "ağacının" fidanı olsa da dastana bənzər ömrü ilə hər kəsin qəlbində yaşayar, körpə şəhidimiz kimi...

**Bibixanım İSAYEVA,**
**"Qəbələ"**

# Tarix yazan igid qəhrəmanlarımız



II Qarabağ savaşı xalqımızın ürəyinə su səpdi, bütün xalqlar arasında başımızı dik tutmağa, məğrur dayanmağımıza zəmin yaratdı. Təbii ki, xoş günləri, tarixi hadisəni bizlərə yaşadan ilk növbədə qəhrəman əsgərlərimiz oldu. Belə qəhrəman əsgərlərimizdən biri də Babayev İqbal Zəki oğludur.

İqbal 1995-ci ildə sentyabrın 10-da Qəbələ şəhərində dünyaya göz açıb və Bakı şəhərində 257 saylı orta məktəbə yollanıb. Orta məktəbi bitirdikdən sonra Xəzər Universitetinə qəbul olur, ikinci kursdan isə öz istəyi ilə Azərbaycan Əmək Sosial Münasibətlər Akademiyasına keçir.

2018-ci ildə sözügedən Universitetin iqtisad fakültəsini bitirir. Elə həmin ilin iyun ayında hərbi xidmətə, Vətənin müdafiəsinə yollanır. Bir illik vətənə borcunu Naxçıvanda başa vurduqdan sonra 2019-cu ilin iyun ayında hərbidən tərxis olunur. İqbalın arzusu bilik və bacarığını daha da artırmaq idi. Məhz bu səbəbdən təhsilini artırmaq üçün gecə-gündüz dövlət qulluğuna hazırlaşır. Fəqət, hamının səbirsizliklə gözlədiyi Qarabağ savaşı başlayır. Hər bir Vətənsevər gənclərimiz kimi, İqbalın da qəlbi Vətən sevgisiylə atırdı. O, Xətai rayon Hərbi Komissarlığına üz tutur və Vətən uğrunda döyüşmək, Vətənin müdafiəsinə yazılmağı özünə şərəf bilir. Çox keçmədən ona çağırış vərəqəsi gəlir və qəhrəmanımız ön cəbhəyə yollanır. Cəbrayıl, Füzuli, Zəngilan istiqamətində gedən döyüşlərdə aslanlar kimi düşmənə qan uddurur. Kim bilərdi ki, İqbal Azərbaycan xalqının xatirəsində əbədi dastan yazanlardan olacaq.

Cənub istiqamətində gedən döyüşlərdə mətinliklə vuruşan İqbalın rəşadətini Vətəni heç vaxt unutmayıb onun cəsurluğuna şəhadət gətirəcək. Döyüşçü yoldaşlarının dediyinə görə, düşməndən azad olunmuş yaşayış məntəqələrimizin birinə üçrəngli bayrağımızı asmaq üçün dörd nəfər könüllüyə ehtiyac olur. İqballa birlikdə dörd nəfər irəli atılır. Bayrağımızı yüksəkliyə asmaq İqbalın nəsibindəymiş. Vətənin igid oğlu üçrəngli bayrağımızı sancdıqdan sonra mənfur erməninin namərd gülləsinə tuş gəlir. Bu hadisə oktyabr ayının 25-nə təsadüf edirdi. Yenidən ərazi uğrunda düşmənlə döyüş gərginləşir. Təbii ki, çətin relyefdə hər qarış torpaq üçün usanmadan mücadilə etmək gərəkdir.

Beləliklə, İqbalın nəşini döyüş bölgəsindən çıxarmaq çətinləşir. Nəhayət, iki gündən sonra, yəni oktyabrın 27-si döyüşçü yoldaşları onun nəşini döyüş bölgəsindən çıxarmağa müvəffəq olurlar. Həyata əbədi gözünü yuman qəhrəmanımızı Beyləqan rayonuna gətirirlər. Atası Şirvan Apellyasiya Məhkəməsinin hakimi (Mülki Kollegiyanın sədri) Zəki Babayev öz qəhrəman

övladının nəşini Beyləqan rayonunda təhvil alır. Söz yox ki, hər bir valideynin çiyninə çökən ağır yük övlad itkisi yüküdür. Lakin şəhidlikdən doğan yük bilavasitə, həm də qürurlu yükdür. Ölməz qəhrəmanımız İqbal ata-baba yurdu Qəbələdə torpağa babasının yanında tapşırılır.

Şəhidlik zirvəsinə yüksəldin, Vətənin igid oğlu İqbal! Ruhun Şad olsun!

Qəhrəman şəhidimizin atası Zəki müəllimin dediklərindən: İqbal heç vaxt turşulu, acılı yeməzdi. Mən indi başa düşürəm ki, tanrı onu Şəhidlik məqamına yüksəltmək üçün yaradıbmış. Adətən, Şəhidlər xüsusi seçilmişlər olur. İqbal həmişə deyirdi ki, mən də babam kimi, nəslimizdə ad qoyacam. Babası Sovetlər birliyi dönəmində Sosialist Əməyi qəhrəmanı olub - Əlimirzəyev Əşrəf Oruc oğlu.

Babasına oxşamaq istəyirdi və istəyinə nail oldu. Həmişə Qarabağdan söz düşəndə damarlarında qanı qaynayır, Vətəni ermənilərdən azad etmək üçün çılğına dönür, döyüş atəşiylə yanırdı İqbal. Məhz elə bu səbəbdən onun tabutu Qəbələdə böyük izdihamla qarşılaşanda, bir anlıq o mənim deyil, Azərbaycanın övladı olduğunu hiss etdim. Tələbə yoldaşları bizi mütəmadi ziyarət etdikcə ürəyim dağa dönür. Onların hər birinə minnətdaram. Məni sevindirən bircə məqam da odur ki, Ali Baş Komandan İlham Əliyevin səyi nəticəsində xalqımız döyüşə səfərbər oldu və torpaqlarımız azad edildi. Əsgərlərimiz bütün dünyaya öz gücünü göstərdi.

Zəki ata, Ülviyyə ana, başınızı dik tutun, Siz Şəhid valideynlərisiniz. Bu şərəf hər bir valideynə nəsib olmur. Vətən sağ olsun! Allah şəhidimizə rəhmət eləsin!

**Məmmədhəsən MƏMMƏDOV,**
**Bakı şəhəri.**

# O zəng çalınacaq... O qapı döyüləcək...



Bir ana var, 121 gündür balasına, 116 gündür balasının səsinə həsrət... Bir ata, bir ana, bir bacı 122 gündür günün dönüşlərini: gecəsini, gündüzünü ayırmır. Onlar üçün hər gün əsrə bərabərdir, onlar üçün günəş də şəfəqlərinin rəngini dəyişib, gecələr ay da gizlənir, ulduzlar da yetimləşib qeybə çəkilir. Küləklər belə əsmək istəmir ki, hər tıqqıltıya səksənən ailəni həyəcanlandırmasınlar. Hər anı səksəkə içində olan Səfərəliyevlər ailəsi gözləri qapıda, gözləri telefonda- xəbər ümidilə hər gün xəyal quraraq övladlarını gözləyirlər.

İlqar və Pərvanə Səfərəliyevlər Mirzəbəyli kəndində doğulub boya-başa çatmışlar. Hazırda Bakı şəhərində yaşayırlar. 2 övladları var-Xəqani və Samirə. Xəqani evin ilkidir. 1991-ci il təvəllüdlüdür. Xəqani Xətai rayonundakı 59 saylı orta məktəbdə oxuyub. 2009-cu ildə hərbi xidmətə çağırılıb.

Hərbi xidmətini başa vurduqdan sonra yenidən Bakı şəhərinə qayıdıb və xırda ticarətlə məşğul olmuşdur.

2020-ci il sentyabrın 27-də başlanan II Vətən Müharibəsində iştirak etmək, torpaqlarımızı işğaldan, yadelli tapdağından azad etmək, qalib ölkənin vətəndaşı adını almaq onun da bir azərbaycanlı kimi başlıca arzusu idi. Sentyabrın 29-da səfərbərliklə əlaqədar Xəqani də döyüşlərdə iştirak etmək üçün yenidən hərbi xidmətə yollandı. Əvvəlcə Goranboy rayonuna, Ballıqayaya gedən Xəqani sonradan Mingəçevirə göndərilmişdir. Ailəsi ilə son dəfə oktyabrın 4-də telefonla danışmışdır.

Ancaq alınan məlumata görə oktyabrın 16-da Suqovuşanda döyüşlərdə iştirak etmişdir...

Hər gününü bir əsr yaşayan ana, hər bir düşüncəsini ürəyinə kökləyən ata, gizli-aşkar göz yaşını qəlbinə axıdan, başı "dumanlı" bacı hər zəng çalınanda, hər qapı döyüləndə həyəcandan titrəyir və kaş ki, danışan, gələn Xəqani olaydı deyə düşünürlər.

Həsrət ilə şəkillərə baxdıqca danışır şəkillər də:

***Yüyür mənsiz dağlaracan, buludlaracan,***
***Haray çəkcən qayalarda səslənər adım***
***Qaranlıqda mayak kimi hey işıq saçan,***
***Torpağının dan yerində şəfəq olaydım!***

Qışın bu qarlı çağında, dağlıq bölgədə olan, itkin düşmüş övladı gözləmək asandırmı?!! Əsən küləklərdən belə insan övladının xəbərini gözlər... Yağan yağışlardan... hər an, keçmək bilməyən saniyələr belə oğul xəbərini gözlətdirir onlara... Hər an axtarışda olan ailəyə əsir düşmə ehtimalının daha böyük olduğunu söyləmişlər.

Heç bir vəchlə sakitlik tapa bilməyən ailə hər səsə - bəlkə Xəqanidir, - deyə telefona, qapıya qaçar, baxarlar. Bu bir gün deyil, 5 gün deyil...

***Könül, bu gün nağıl olub,***
***Dünənimə qaytar məni,***
***Xəqanili günlərimlə,***
***Öz mənimə qaytar məni...***

İnsanı yaşadan ümiddir, inamdır, inancdır. Ümidi itirməyin, ana! Ata, bacı, inşallah, gözlədiyiniz telefon zəngi çalınacaq...

İgid, cəsur, vətənpərvər övladınız o qapını döyəcək... Biz də, bütün qəbələlilər, Azərbaycan xalqı itkin düşən oğullarımızın, Xəqani balamızın sağ-salamat evinə, ailəsinə dönməsi üçün dua edirik

Allaha sığınırıq!

**Bibixanım İSAYEVA,**
**"Qəbələ"**

# Kərim döyüşdən gəlib

***İgid əsgər və zabitlərimizə ithafən***

Əməli sözündən böyük,
Ürəyi özündən böyük,
Tək özü yüzündən böyük...
Nə yatıb, nə dincəlib,
Kərim döyüşdən gəlib.

Tanrımızın qulu kimi,
Azərbaycan balı kimi,
Mərmi yağıb dolu kimi...
Düşmənin köksünü dəlib,
Kərim döyüşdən gəlib.

Yolu yoxuş, gah düz olub,
Yataq yeri qar, buz olub,
Gecələri gündüz olub..
Xalqımız olub qalib -
Kərim döyüşdən gəlib.

Babamızdır Xan Ərdoğan!
Öndə Ali Baş Komandan
Düşmənləri qoyduq viran!
Arzularım dirçənilib-
Kərim döyüşdən gəlib.

Alqışlayaq ordumuzu,
Cənnət edək yurdumuzu,
Daim gülsün elin üzü,
Sarsılıbdır düşmən - ölüb !
Kərim döyüşdən gəlib.

**Ədalət ƏLİ.**